# Əsas Dəyişikliklərin Xülasəsi və İzahlı Qeydlər

*Qadağan Edilmiş Siyahı 2026*

## HƏR ZAMAN QADAĞAN EDİLMİŞ MADDƏ VƏ ÜSULLAR
(YARIŞ MÜDDƏTİNDƏ VƏ YARIŞDAN KƏNAR MÜDDƏTDƏ)

# QADAĞAN EDİLMİŞ MADDƏLƏR

### S1. Anabolik agentlər

- S1.1-də qadağan edilmiş steroidlərin esterlərinin də qadağan olunduğu dəqiqləşdirilmişdir.

### S2. Peptid hormonları, böyümə faktorları, əlaqəli maddələr və mimetiklər

- Peqmolesatid yeni EPO-mimetik agentin nümunəsi kimi əlavə edilmişdir.

### S3. Beta-2 Aqonistlər

- Salmeterolun dozalaşdırma intervalları terapevtik təsirdən kənarda potensial ergoqenik effektlərin qarşısını almaq üçün yenidən nəzərdən keçirilmişdir. 24 saat ərzində maksimum çatdırılan doza 200 mikroqram olaraq dəyişməz qalır.

### S4. Hormon və Metabolik Modulyatorlar

- α- naftoflavon və ya 7,8-benzoflavon kimi də tanınan 2-fenilbenzo[h]xromen-4-on aromataza inhibitorunun nümunəsi kimi əlavə edilmişdir. Bu sintetik maddə əlavələrdə aşkar edilmişdir.
- BAM15 kimi də tanınan 5-N,6-N-bis(2-fluorfenil)-[1,2,5]oksadiazolo[3,4-b]pirazin-5,6-diamin AMP-aktivləşdirilmiş protein kinazın (AMPK) aktivatorunun nümunəsi kimi əlavə edilmişdir. Bu sintetik maddə qida əlavələrində aşkar edilmişdir.

1 Thoueille P, Danion A, Hostrup M, Petrou M, Deventer K, Buclin T, Girardin F, Mazzoni I, Rabin O, Guidi M. Pharmacometric-based evaluation of salmeterol and its metabolite α-hydroxysalmeterol in plasma and urine: practical implications for doping control. Submitted for publication.

# QADAĞAN EDİLMİŞ ÜSULLAR

## M1. Qan və Qan Komponentləri ilə Manipulyasiyalar

- Qan və ya qan komponentlərinin götürülməsinin aşağıdakı hallar istisna olmaqla qadağan olunduğu dəqiqləşdirilmişdir: 1) tibbi testlər və ya Dopinq Nəzarəti daxil olmaqla analitik məqsədlər üçün və ya 2) fəaliyyət göstərdiyi ölkənin müvafiq tənzimləyici orqanı tərəfindən akkreditasiya olunmuş qan toplama mərkəzində donor məqsədləri üçün. Qeyd edilməlidir ki, Trombositlə Zəngin Plazma (TZP) və əlaqəli prosedurlar qadağan deyildir.
- Karbon monoksidin (CO) qeyri-diaqnostik istifadəsi yeni bölmə M1.4 kimi *Qadağan Edilmiş Metodlara* əlavə edilmişdir. CO müəyyən şəraitlərdə eritropoezi artıra bilər. Karbon monoksidin ümumi hemoqlobin kütləsinin ölçülməsi və ya ağciyər diffuziya qabiliyyətinin təyini kimi diaqnostik məqsədlərlə istifadəsi qadağan deyildir. Mövcud ifadələr qeyri-qanuni istifadə ilə təbii yanma proseslərindən (məsələn, siqaret çəkmək) , ətraf mühitdən (məsələn, dəm qazları) və ya diaqnostik prosedurlardan yaranan qəbul arasında fərq qoymaq üçün seçilmişdir.

## M3. Gen və Hüceyrə Dopinqi

- Hüceyrə komponentləri (məsələn, nüvə, mitoxondri və ribosom kimi hüceyrə orqanoidləri) normal və ya genetik modifikasiya olunmuş hüceyrələrin istifadəsinə dair mövcud qadağaya əlavə edilmişdir.

# QADAĞAN EDİLMİŞ MADDƏLƏR

## S6. Stimullaşdırıcılar

- 2-[Bis(4-fluorfenil)metilsulfinil]asetamid (flmodafinil) və 2-[bis(4 fluorfenil)metilsulfinil]-N-hidroksiasetamid (fladrafinil) S6.A qeyri-spesifik stimulyatorlar siyahısına əlavə edilmişdir. Bu təsdiqlənməmiş maddələr modafinil və adrafinilin güclü analoqlarıdır və qida əlavəsi kimi satılır.

## S9. Qlükokortikoidlər

- Qlükokortikoid Xaricolunma Müddəti Cədvəlinə aşağıdakı izahat əlavə olunur: "Uzunmüddətli təsirə malik qlükokortikoid formulalarının istifadəsi, uzunmüddətli sistem absorbsiyası səbəbindən yuyulma müddətindən sonra analiz zamanı aşkar edilə bilən qlükokortikoid səviyyələrinə səbəb ola bilər."

<table>
<tr><th>Yeridilmə (tətbiq) üsulu</th><th>Qlükokortikoid</th><th>Xaricolunma müddəti*</th></tr>
<tr><td rowspan="2">Oral**</td><td>Bütün qlükokortikoidlər;</td><td>3 gün</td></tr>
<tr><td>Triamcinolone; triamcinolone acetonide istisna olmaqla</td><td>10 gün</td></tr>
<tr><td rowspan="3">Əzələdaxili***</td><td>Betamethasone; dexamethasone; methylprednisolone</td><td>5 gün</td></tr>
<tr><td>Prednisolone; prednisone</td><td>10 gün</td></tr>
<tr><td>Triamcinolone acetonide</td><td>60 gün</td></tr>
<tr><td rowspan="2">Yerli inyeksiyalar (o cümlədən periartikulyar, intraartikulyar, peritendinoz və intratendinoz)</td><td>Bütün qlükokortikoidlər;</td><td>3 gün</td></tr>
<tr><td>Prednisolone; prednisone; triamcinolone acetonide; triamcinolone hexacetonide istisna olmaqla</td><td>10 gün</td></tr>
<tr><td rowspan="2">Rektal</td><td>Bütün qlükokortikoidlər;</td><td>3 gün</td></tr>
<tr><td>Triamcinolone diacetate; triamcinolone acetonide istisna olmaqla</td><td>10 gün</td></tr>
</table>

*"Xaricolunma müddəti" son yeridilən dozadan Yarışdaxili dövrün başlanğıcına qədər olan müddətə aiddir (yəni idmançının iştirak etməsi planlaşdırılan yarışdan əvvəlki gün saat 23:59-dan başlayır, WADA tərəfindən müəyyən idman növü üçün fərqli müddət təsdiq edilmədiyi halda). Bu, qlükokortikoidin minimum təyin oluna bilən konsentrasiya həddini aşağı salınmasına imkan verməк üçündür.
** Oral yollara həmçinin oromukozal, bukkal, diş əti və dilaltı daxildir.
*** Prolonqasiya edilmiş azadolma xüsusiyyəlti qlükortikoid tərkibli dərman formalarının istifadəsi qlükotrikoidlərin sorulma vaxtının artmasına səbəb olur ki, bu da maddənin orqanizmdən xaricolunma müddətini artıra bilər.
Xaricolunma Müddəti Cədvəli həmçinin Siyahı TSS-da https://www.wada-ama.org/en/prohibited-list#faq-anchor, eləcə də Qlükokortikoidlər və Terapevtik İstifadə üçünİstisnaları Təlimatlarında mövcuddur https://www.wada-ama.org/en/resources/therapeutic-use-exemption/glucocorticoids-and-therapeutic-use-exemptions-guidelines

# MONİTORİNQ PROQRAMI

- Semaqlutidin sidik monitorinqinin tirzepatidi də əhatə etdiyi dəqiqləşdirilmişdir.

- *Əvvəlki dəyişikliklər və dəqiqləşdirmələr haqqında ətraflı məlumat üçün https://www.wada-ama.org/en/prohibited-list#faq-anchor ünvanında Qadağan Edilmiş Siyahı Tez-tez Verilən Suallarına müraciət edin.